**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN A CAPELLA XOR MUSİQİSİNDƏ MUĞAMIN TƏCƏSSÜMÜ (1990-CI İLLƏRƏ QƏDƏR)

İxtisas: 6213.01 – Musiqi sənəti

Elm sahəsi: Sənətşünaslıq

İddiaçı: **Leyla Rauf qızı Muradzadə**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2022**

Dissertasiya işi Azərbaycan Milli Konservatoriyasının “Musiqinin tarixi və nəzəriyyəsi” kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: sənətşünaslıq doktoru, dosent
**Ülkər Sabir qızı Əliyeva**

Rəsmi opponentlər: sənətşünaslıq doktoru, professor
**Cəmilə İsmayıl qızı Həsənova**

sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Nərmin Ziyadxan qızı Qaralova**

sənətşünaslıq üzrə fəlsəfə doktoru
**Vüqar Bəxtiyar oğlu Hümbətov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya şurası

Dissertasiya şurasının
sədri: Xalq artisti, professor
__________ **Fərhad Şəmsi oğlu Bədəlbəyli**

Dissertasiya şurasının
elmi katibi: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
__________ **Leyla Ramiz qızı Zöhrabova**

Elmi seminarın sədri: sənətşünaslıq doktoru, professor
__________ **İmruz Məmməd Sadıx qızı Əfəndiyeva**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Qədim Azərbaycan mərasim folklorunun qədim nümunələrində birgə oxuma formasına təsadüf olunsa da (“Haxışta”, “Gülüm can”, xorla oynanan “Yallı” rəqsi, dini mərasim tamaşalarından olan “Şəbih” tamaşaları, xorla oxunan mərsiyələr və s.), bu ənənə şifahi musiqinin folklor və peşəkar sahələrində öz davamını tapmamışdır. Bu səbəbdən müasir Azərbaycan xor mədəniyyəti demək olar ki, tam olaraq bəstəkar yaradılıcılığının məhsulu kimi yaranıb inkişaf etmişdir. Milli xor sənətinin inkişafında müstəsna xidmətləri olmuş Üzeyir bəy Hacıbəyli (1885-1948) bu yaradıcılıq sahəsinin inkişafı üçün böyük əmək sərf etmişdir. Onun möhtəşəm yaradıcılığının ilk nümunəsi olan “Leyli və Məcnun” operasının məşhur “Şəbi-hicran” xoru ilə başlaması heç də təsadüfi olmamışdır. Ü.Hacıbəyli milli xor kollektivinin yaradılmasına nəinki təşəbbüs göstərmiş, həm də onun milli ruhlu əsərlərdən ibarət olan bədii repertuarının qayğısına qalmışdır. Bu sahədə dahi bəstəkar və musiqişünasın milli çoxsəslilik üslubunu yaratmaq istəyi ilə xor kollektivinin təşkili bir-birini tamamlamışdır. Təbii ki, milli xor sənətinin möhkəm zəmin əsasında qurulması bəstəkarı düşündürmüş və özünün ilk yaradıcılıq təcrübələrindən başlayaraq bəstəkar məqsədinə nail olmuşdur.

Azərbaycan bəstəkarlıq sənətinin ən güclü mənbələrindən birini məhz möhtəşəm muğam sənəti təşkil edir. Bu cəhət xor mədəniyyətinin yaradılmasında da təməl prinsiplərdən birini təşkil etmişdir. Eyni qanunauyğunluq araşdırmağa cəhd etdiyimiz a capella xor nümunələrində də özünü göstərir. Muğam sənətinin bəstəkar yaradıcılığına, o cümlədən bəstəkarlarımızın xor əsərlərinə təsiri mürəkkəb və çoxcəhətli bir məsələdir. Lakin rəngarəng təzahür formalarına malik olan muğam prinsipləri indiyə qədər a capella xor əsərlərində kifayət qədər öyrənilməmişdir. Bu səbəbdən təqdim edilən dissertasiyanın mövzusu mühüm aktuallıq kəsb edir.

Müasir bəstəkarlıq məktəbinin banisi Ü.Hacıbəylinin Azərbaycanda və Şərq aləmində ilk opera olan “Leyli və Məcnun”un “Şəbi-hicran” proloq-xorundan başlayaraq, xor əsərləri Azərbaycan bəstəkarlarının yaradıcılıqlarının ayrılmaz hissəsinə çevrilmişdir.

Bütövlüklə, Azərbaycan musiqi mədəniyyətinin və ayrı-ayrılıqda Azərbaycan bəstəkarlarının yaradıcılığının dünyada qəbul olunmasına baxmayaraq, zəngin musiqi mədəniyyətimizin öyrənilməsində bir çox tədqiq edilməmiş sahələr mövcuddur. Bu tam olaraq Azərbaycan xor musiqi mədəniyyəti sahəsinə aiddir.

Azərbaycan musiqişünaslarının tədqiqatlarında a capella xoru üçün yazılmış əsərlər xüsusi yer tutur. Çünki onların hər birində, hətta ən kiçiyində belə öz aspektindən çıxış edən böyük bir obrazlar dünyası yaşayır və hər birinin öz orijinal çözümü vardır. A capella xoru janrında yazıb-yaratmış bəstəkarların cilalanmış, yüksək sənətkarlığı, əsərlərindəki bədii ideya yeniliyi və üslub fərqliliyi yeni-yeni araşdırmaçıların diqqətini cəlb etməkdədir. Bununla belə, çağdaş musiqişünaslıqda hələ ki, sırf müşayiətsiz xor musiqisinə, eyni zamanda, mövcud əsərlərin muğam rakursunda hərtərəfli və təfərrüatlı təhlilinə həsr olunmuş tədqiqat işləri yoxdur. Göstərilmiş fakt seçilmiş mövzunun aktuallığını müəyyən edən önəmli aspektlərdən biridir.

Bu günədək tədqiqatçıların nəzərlərini əsasən iri formada yazılmış xor əsərləri – opera, oratoriya, kantata və s. cəlb etmişdir. Lakin bizim fikrimizcə, a capella xor partituraları daha böyük maraq obyektinə çevrilmişdir. Belə ki, a capella xor janrı bütün dünyada çoxsəsli oxumaların zirvəsi kimi qəbul olunmuşdur. Bu kimi əsərlərdə xor səslənməsinin spesifikası daha aydın nəzərə çarpır və heç bir alətin köməyi olmadan sırf vokal imkanları vasitəsiylə xor kökünün saxlanılması, o cümlədən, mürəkkəb harmoniyaların sərrast intonasiya edilməsi ifaçılardan böyük ustalıq tələb edir. Bundan savayı, burada bəstəkarların müəllif dəsti-xətti, xor imkanlarından lazımınca istifadə etmə məharəti, düşüncə individuallığı və qeyri-standartlılığı, həmçinin, musiqidə poetik mətnin emosional çalarlarını və semantik mənasını geniş surətdə əks etdirmə təmayülləri özünü göstərir. Odur ki, Azərbaycan bəstəkarları və xormeysterlərinin yaradıcılığında müşayiətsiz xorların təhlili, onların melodik əsasında muğam mənşəyinin üzvi və orijinal təzahürləri baxımından qiymətləndirilməsi bu gün həllini gözləyən elmi məsələlər sırasından hesab olunur.

Ü.Hacıbəylinin yaradıcılığından başlayaraq, Azərbaycan professional bəstəkarlıq sənətində muğama bu və ya digər formalarda müraciət hər zaman aparıcı tendensiyalardan biri olmuşdur. Muğam

və bəstəkar yaradıcılığı öz aralarında qarşılıqlı əlaqədə olaraq, vahid milli-mədəni prosesin ən önəmli tərkib hissələrini təşkil edən iki müstəqil bədii sistem kimidirlər. Bu tendensiya Azərbaycan bəstəkarlarının a capella xoru üçün yazılmış əsərlərində öz parlaq təcəssümünü tapmışdır.

Beləliklə, hazırkı dissertasiya Azərbaycan a capella xor musiqisi janrında muğam qanunauyğunluqlarının istifadəsi və xüsusiyyətlərini araşdıran, bununla da bu sahədə yaranmış boşluqları doldurmaq üçün göstərilən ilk təşəbbüs hesab olunur. Bu əsasda bir sıra prolemlər meydana çıxır:

- Azərbaycan bəstəkarları və xormeysterlərinin yaradıcılığında a capella xoru üçün yazılmış əsərlərin kompleks şəklində araşdırılması;
- Azərbaycan bəstəkarları və xormeysterlərinin xor yaradıcılığının üslub müxtəlifliyi baxımından tədqiq edilməsi;
- Qeyd edilən əsərlərin milli mənbələrə və ilk növbədə, muğam sənətinə dayaqlanmayla əlaqədar bədii ifadəli və formayaradıcı xüsusiyyətlərin araşdırılması;

Ümumilikdə, özündə muğamla üzvi əlaqəni ehtiva edən Azərbaycan xor musiqisi, eləcə də xüsusilə a capella xor musiqi yaradıcılığı problemlərinin vahid bir sistem olaraq az öyrənilmiş olması, adıçəkilən mövzunun aktuallığını müəyyən edir. Həmçinin, təqdim olunmuş dissertasiya işi göstərilmiş problemin Azərbaycan musiqi elmində daha geniş şəkildə işlənməsinə zəmin yaradaraq böyük perspektivlər açır.

Azərbaycan xor musiqi incəsənəti sahəsində aparılan araşdırmalar sırasında hər şeydən öncə adını çəkməli olduğumuz elmi iş, Mirzə-ağa Əsgərova məxsusdur. Burada o, Azərbaycanda xor oxumaları ənənələri mənbələrini üzə çıxararaq, çoxsəsliliyin milli formalarının xüsusiyyətlərini işıqlandırmışdır[1]. Daha sonra, Sahilə Ağayevanın Azərbaycan bəstəkarlarının xor əsərlərinin

[1] Аскеров, М.А. Истоки народной музыки в хоровых произведениях азербайджанских композиторов / Автореферат дисс... канд. искусств / – Тбилиси, 1988. – 22 с.

yaranmasında milli təfəkkürə həsr olunmuş tədqiqat işi[2], həmçinin, Leyla Məmmədovanın vətənimizdə xor sənətinin yaranması və inkişaf tarixi, eləcə də, Azərbaycan bəstəkarlarının xor yaradıcılığında üslub və janr, o cümlədən, təkamül problematikasına həsr olunmuş "Хоровая культура Азербайджана" [3] ("Azərbaycanın xor mədəniyyəti") adlı monoqrafiyası xüsusi maraq doğurur. Bu qəbildən olan araşdırmalar içərisində Yulizana Kuxmazovanın[4] Azərbaycan bəstəkarlarının yaradıcılığında xor miniatürü janrının inkişafından bəhs edən elmi işi də diqqətəlayiqdir. Bununla belə, qeyd etmək istərdik ki, göstərilən oçerklərdə müşayiətsiz xorlarla müqayisədə, Azərbaycan bəstəkarlarının kantata-oratorial janrda bəstələnmiş əsərlərinə və operalarındakı xorlara əsasən daha böyük diqqət ayrılmışdır. Verilmiş araşdırmalar arasında Nailə Mirzəyevanın [5] və Sevinc Rzayevanın[6] tədqiqat işlərindən istifadə olunmuşdur.

Verilmiş siyahı bu mövzuya dair dissertasiya işləri, habelə, ayrı-ayrı bəstəkarların – Q.Qarayev, F.Əmirov, A.Əlizadə, C.Cahangirov, F.Əlizadə və digərlərinin xor yaradıcılığına həsr olunmuş monoqrafiyalar və onların fəsilləri ilə tamamlana bilər.

Göründüyü kimi, yerli musiqişünaslıq muğam və xor mədəniyyətinin müxtəlif tərəflərini əks etdirən müəyyən bir material toplamışdır. Buna baxmayaraq, yuxarıda adları çəkilən elmi işlərin heç birində təhlil olunmuş Azərbaycan a capella xor musiqi yaradıcılığı nümunələri və muğamın onların melodik əsasına göstərdiyi təsir prizmasına ayrıca bir tədqiqat obyekti kimi

---

[2] Агаева, С.Г. Особенности национального мышления в хоровом творчестве Азербайджанских композиторов / Дисс… кандидата искусствоведения / – Баку, 1995. – 141 с.

[3] Мамедова, Л.М. Хоровая культура Азербайджана / Л.М.Мамедова. – Баку: Адильоглы, – 2010. – 231 с.

[4] Кухмазова, Ю.Ш. Эволюция жанра хоровой миниатюры в творчестве азербайджанских композиторов / Дисс... док. философии по искусств / – Баку, 2016. – 150 с.

[5] Мирзоева, Н.А. Пути становления кантатно–ораториального жанра в Азербайджане / Дисс... канд. искусств / ─ Баку, 1994. – 206 с.

[6] Рзаева, С.Т. Триптих Васифа Адыгёзалова: «Гарабах шикэстэси», «Чанаккала» и «Гэм карваны» (традиции и современность в трактовке жанра) / Автореф. дисс... канд. искусств / – Баку, 2005. – 22 с.

baxılmamışdır. Məhz bu məqam müəllifin verilmiş mövzuya olan tədqiqatçı marağını stimullaşdırmışdır.

Tədqiqatın materialını faktiki olaraq, Azərbaycan bəstəkarlarının XX əsrin birinci yarısından 90-cı illərədək qələmə aldığı a capella xor partituraları təşkil edir. Əvvəldə 1920-1930-cu illərdə Ü.Hacıbəyli tərəfindən qələmə alınmış ilk müşayiətsiz xalq mahnı işləmələri olan "Aman nənə", "Ləlli", "Lolo", "Bəri bax" və "Nə gözəldir" miniatürünün qısa icmalı verilmiş, həmçinin, Q.Qarayevin "Payız", F.Əmirovun "Gözəlim sənsən" xalq mahnısı işləməsi, A.Əlizadənin "Qədim lay-lay" a capella xoru, N.Əliverdibəyovun "Bayatı-Şiraz" və "Şikəstə" xor muğamları , C.Cahangirovun "Kərəm kimi" əsəri, Ə.Hüseynzadənin "Ey Vətən!" a capella xoru, F.Nağıyevin üç hissəli xor konserti, "Dörd poema" məcmuəsi, "Aşiqəm" adlı xor miniatürləri, R.Mustafayevin "Gülüm yoxdur", F.Əlizadənin "Payız", A.Kərimovun "Buludlar" və "Yarpaqlar", M.Əsgərovun "Əhsən şüştər", həmçinin F.Cavadovun "Qara Yanvar" xor miniatürləri tədqiqat işində hərtərəfli şəkildə təhlil olunmuşdur.

Bu şəkildə, təqdim olunmuş dissertasiya işinin konkret analitik tədqiqat aspekti Azərbaycan bəstəkarları və xormeysterlərinin 21 a capella xorunun ətraflı təhlilində özünü göstərir. Azərbaycan a capella xor musiqisinin nümunələrinə baxarkən, fikrimizcə, muğamın daha qabarıq, parlaq və orijinal şəkildə öz təcəssümünü tapmış əsərlərə müraciət olunmuşdur. Dissertasiyanın yerinə yetirilməsi zamanı Azərbaycan bəstəkarlarının Azərbaycan Dövlət Xor Kapellasının, eləcə də Bakı Musiqi Akademiyasının kitabxanalarında saxlanılan, həm nəşr olunmuş, həm əlyazma şəklində olan partituralarından istifadə olunmuş, eləcə də şəxsi arxivlərə müraciət edilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Təqdim olunmuş tədqiqat işinin obyektini Azərbaycan bəstəkarları və xormeysterlərinin çağdaş vokal musiqisinin önəmli tərkib hissəsi olan a capella xor yaradıcılığı təşkil edir. Tədqiqatın predmeti isə XX əsrin 90-cı illərinə qədər olan zaman kəsiyində meydana gəlmiş Azərbaycan a capella xor əsərlərinin muğam aspektində aparılmış təhlilidir. Göstərilmiş xronoloji sərhədlər təsadüfi seçilməmişdir, belə ki, məhz həmin period Azərbaycanda xor musiqisinin yaranması və təşəkkülü

mündəricəsi kimi qeyd olunmuşdur. Demək olar ki, bir əsrlik tarixi müddətin əhatə olunması xor musiqi yaradıcılığının bu sahəsini açıq və dinamik sistem olaraq araşdırmağa imkan verir.

**Tədqiqatın məqsəd və vəzifələri** təqdim olunmuş dissertasiya işində Azərbaycan bəstəkarlarının yaradıcılığında yer almış a capella xor janrının çoxtərəfli və sintez-holistik şəkildə işıqlandırılmasıdır. Qarşıya qoyulmuş məqsəd müxtəlif yanaşmaların zəruri uyğunlaşmasını ehtimal edir. Onlardan biri Azərbaycan bəstəkarları və xormeysterlərinin xor yaradıcılığında a capella əsərlərinin kompozisiya quruluşlarında önəmli tarixi təmayüllərin nəzərdən keçirilməsi ilə bağlıdır. İkincisi isə, kompozisiya aspektidir ki, bu və ya digər müəllifin seçilmiş muğam əsaslarıyla qarşılqlı əlaqə xüsusiyyətlərini daha relyefli üzə çıxarmağa imkan yaradır.

Qarşıya qoyulmuş məqsədə nail olunacağı təqdirdə bir sıra məsələlərin öz həllini tapmasına səy göstərilmişdir:

- Azərbaycan xor musiqisində a capella əsərlərinin məzmunu, muğamla qarşılıqlı əlaqə və spesifikasını üzə çıxarmaq;
- XX əsrin Azərbaycan musiqisində a capella xor mətninin dinamik inkişafını müəyyən etmək;
- Azərbaycan xor musiqi yaradıcılığında müşayiətsiz xor üçün yazılmış, araşdırmaya cəlb olunan hər bir əsərin individual xüsusiyyətləri və muğam inikasını konkret nümunələr üzərində çoxməqamlılıq əsası daxil olmaqla təhlil etmək;
- Şeirlə musiqi kompozisiyasının qarşılıqlı təsir xüsusiyyətlərini metr və ritm cəhətində təhlil etmək;
- Azərbaycan xor musiqi yaradıcılığında a capella xorlarının intonasiya və konstruktiv xüsusiyyətlərini, eləcə də obraz və mövzularını açmaq, faktura təşkili üsullarını müəyyənləşdirmək;
- Təhlil olunan əsərlərin obraz-poetik və bədii-emosional əsaslarını muğam istifadəsinə xarakterik xüsusiyyətlərlə qarşılıqlı əlaqə aspektində aşkara çıxarmaq;
- Təhlil olunan əsərlərin janr xüsusiyyətlərini xarakterizə etmək, onlarda ənənəvi və müasir olanın, kanonvarılıq və individuallığın nisbət dərəcəsini meydana çıxarmaq;

**Tədqiqat metodları.** Tədqiqatın metodlarını tarixi və nəzəri musiqişünaslığın, muğam və məqam tədqiqatlarının, xor ifaçılığı

nəzəriyyəsinin əsas prinsipləri təşkil edir. A capella xor əsərlərinin muğam mövqeyindən tədqiq olunması zamanı Ü.Hacıbəylinin nəzəri və estetik konsepsiyasına, Akademik Boris Asafyevin intonasiya nəzəriyyəsinin əsas müddəalarına istinad olunmuşdur.

Tədqiqatın problemi və onunla əlaqəli məsələlərin qoyuluşu araşdırmanın bir neçə metodunu müəyyən etmişdir:

1. Əsərin məzmun və formasını vahid şəkildə təfsir edən holistik metod;

2. Hər bir konkret əsərdə müəyyən muğamların istifadəsinin səbəbini aşkara çıxaran struktur-funksional metod;

3. Azərbaycan a capella musiqi yaradıcılığında əsərlərin obraz mündəricəsini üzə çıxarmağa imkan yaradan semantik metod;

4. Xor tembrofonikasına (xor partiyalarının istifadəsi, onların uyğunlaşması, səslərin tessitura şərtləri, tembr spesifikası, faktura xüsusiyyətləri və s.) dair məsələləri işıqlandıran xorşünaslıq yanaşması metodu;

5. Azərbaycan bəstəkarlarının a capella xorlarını öz aralarında müqayisə etməyə imkan yaradan və onların ümumi spesifik cəhətlərini üzə çıxaran tipoloji-müqayisəli metod.

Tədqiqatın metodoloji bünövrəsini həm milli, həm də Rusiya alimlərinin müxtəlif istiqamətli elmi iş və araşdırmaları təşkil edir.

Birincisi, Azərbaycan xor musiqi yaradıcılığına müraciət Ü.Hacıbəylinin milli lad sistemi ilə harmonik major-minor sistemini orqanik şəkildə sintez etmə nəzəriyyəsinə metodoloji dayaqlanmanı şərtləndirir. [7] Azərbaycan bəstəkar və xormeysterlərinin xor yaradıcılıqlarında əxz olunan folklor mənbəyini araşdırarkən, M.İsmayılov [8], R.Zöhrabov [9], S.Bağırova [10], M.Qasımlı [11],

---

[7] Hacıbəyov, Ü.Ə Azərbaycan xalq musiqisinin əsasları / Ü.Ə.Hacıbəyov. – Bakı: Yazıçı, – 1985. – 154 s.

[8] İsmayılov, M.C. Azərbaycan xalq musiqisinin janrları. Yenidən işlənmiş və tamamlanmış nəşr / M.C.İsmayılov. – Bakı: – İşıq, –1984. – 99 s.

[9] Zöhrabov, R.F. Azərbaycan muğamları / R.F.Zöhrabov. – Bakı: Təhsil, – 2013. – 336 s

[10] Багирова, С.Ю. Азербайджанский мугам. Статьи, исследования, доклады. I том. / С.Ю.Багирова. – Баку: – Элм 2007. – 289 с.

[11] Qasımlı, M.P. Ozan-Aşıq sənəti / M.P.Qasımlı. – Bakı: Uğur, – 2007. – 304 s.

T.Məmmədov [12] və Ə.Bədəlbəyli [13] elmi işləri tədqiqata cəlb olunmuşdur.

İkincisi, verilmiş araşdırma çərçivəsində metodoloji əhəmiyyət kəsb edən, o cümlədən, xor ədəbiyyatı və xorşünaslıq sahəsində tarixi-analitika və nəzəri metod təcrübəsini uyğunlaşdıran elmi tədqiqat işləri, rus alimləri Q.Qriqoryeva [14] və Y.Paisovun [15] metodikaları olmuşdur.

Üçüncüsü, dissertasiyanın metodologiyası həmçinin B.Asafyevin «Музыкальная форма как процесс» ("Musiqi forması bir proses kimi") fundamental elmi işinə dayaqlanır. B.Asafyev "Musiqi intonasiyası" anlayışının özünü ilkin "ritm-söz-ton-vahidlik" mənasından çıxarıb, kontekstdən asılı olaraq müxtəlif cür mənalandırır və onu olduqca geniş surətdə şərh edir. Onun musiqi və sözün qarşılıqlı əlaqə dialektikasını açan tezisləri xüsusilə əhəmiyyətlidir: *"Vokal janrlarının çoxşaxəliliyi söz və səsin ahəngi, onların ritm-intonasiyasından törəyərək, müstəqil incəsənət hesab olunur. Və bu müstəqilliyin izləri kamera-vokal üslubun formalarını melodiko-harmonik "libasda" bu günədək qoruyub saxlayır..."*[16]

Dördüncüsü, xor əsərlərinin janr spesifikası üzə çıxarkən, B.Asafyev [17], A.Berberov [18], A.Yeqorov [19], V.Krasnoşşyokov [20],

---

[12] Мамедов, Т.А. Традиционные напевы азербайджанских ашыгов / Т.А.Мамедов. – Баку: Ишыг, – 1988. – 251с.

[13] Bədəlbəyli, Ə.B. Qurban Primov / Ə.B.Bədəlbəyli. – Bakı: Azərnəşr, –1955. – 49 s.

[14] Григорьева, Г.В. Русская хоровая музыка 1970–80–х годов / Г.В.Григорьева. – Москва: Музыка, – 1991. – 80с.

[15] Паисов, Ю.И. Эволюция хоровых жанров. История отечественной музыки второй половины XX века. Учебник / Ю.И.Паисов. – Санкт–Петербург: Композитор, – 2005. – с. 480 – 513.

[16] Асафьев, Б.В. Музыкальная форма как процесс: [Книга 1 и 2] / Б.В.Асафьев. – Ленинград: Музыка, – 1971. – 376 с.

[17] Асафьев, Б.В. О хоровом исскустве: Сборник статей / Б.В.Асафьев: сост. и коммент. А.Павлова-Арбенина. – Ленинград: Музыка, – 1980. – 216 с

[18] Берберов, Р.Н. Специфика структуры хорового произведения / Р.Н.Берберов. – Москва: ГМПИ им. Гнесиных, – 1981. – 27 с.

[19] Егоров, А.А. Основы хорового письма / А.А.Егоров. – Ленинграл – Москва: Искусство, – 1939. – 171 с

[20] Краснощеков, В.И. Вопросы хороведения. Учеб. пособие / В.И.Краснощеков. Москва: Музыка, – 1969. 300с.

P.Levando [21] və A.Uşkaryovun [22] xor incəsənəti üzrə tədqiqat nəticələri nəzərə alınmışdır. Burada oxuma səsləri, xorun tipləri və növləri haqda ətraflı məlumatlar verilir, xor aranjimanı ilə bağlı məsələlərə, partitura yazılışı növlərinə, eləcə də səslərin müxtəlif fəndlər və mümkün kombinasiyalarla birləşmə üsullarına baxılır.

Beşincisi, a capella xorlarının faktura təşkilinin araşdırılması zamanı dissertasiya müəllifi P.Levando [23], Y.Tyulin [24], V.Xolopovanın [25] musiqi fakturası məsələləri və onun əsərin obrazlılıq, həmçinin dramaturgiyasının yaranmasında roluna həsr olunmuş elmi işlərində verilmiş təhlil metodlarından istifadə etmişdir. Bu tədqiqat işlərində səs materialının ifadə növləri və tipləri, onun paramaetr və elementləri, səslərin biri-biriləri ilə uyğunlaşma, qarşılıqlı münasibət və xarakter nöqteyi-nəzərindən funksiyaları, eləcə də digər önəmli nəzəri məqamlar yer almışdır.

Altıncısı, metodoloji əsaslar içərisində istifadə olunan mənbələr sırasında xor incəsənəti sahəsində çalışan azərbaycan alimləri və pedaqoqlarının metodoloji tədqiqat, o cümlədən elmi işləri də mövcuddur. Onların arasında Z.İsmayılova [26] və Y.Həbibovun[27] işlərini xüsusi olaraq qeyd etmək istərdik.

Yeddincisi, dissertasiyanın metodoloji mənbələr siyahısına azərbaycan bəstəkarlarının yaradıcılıqlarını öz elmi işlərində əks etdirmiş musiqişünaslarımızın da tədqiqatları aiddir: E.Abbasova,

---

[21] Левандо, П.П. Хоровая фактура: Монография / П.П.Левандо. – Ленинград: Музыка, – 1984. – 123 с.

[22] Ушкарев, А.Ф. Основы хорового письма: Учебник [2–е изд] / А.Ф.Ушкарёв. – Москва: Музыка, – 1982. – 231 с

[23] Левандо, П.П. Хоровая фактура: Монография / П.П.Левандо. – Ленинград: Музыка, – 1984. – 123 с.

[24] Тюлин, Ю.Н. Тюлин, Ю.Н. Музыкальная фактура и мелодическая фигурация. Практический курс. Для теоретико-композиторских факультетов муз. вузов. В двух книгах / Ю.Н.Тюлин. ─ Москва: Музыка, – 1980. – 311 с.

[25] Холопова, В.Н. Холопова, В.Н. Теория музыки: Мелодика. Ритмика. Фактура. Тематизм / В.Н.Холопова. – Санкт–Петербург: Лань, – 2002. – 368 с.

[26] Исмайлова, З.А. Хоры a capella азербайджанских композиторов и работа над ними. Методическая рекомендация / З.А.Исмайлова. – Баку: – 1987. – 30 с.

[27] Габибов, Ю.А. Обработка народных песен для хора азербайджанских композиторов / Автореф. дисс... канд. искусств / ─ Ташкент, 1985. – 24 с.

İ.Abezqauz, Ü.Əliyeva, F.Əliyeva, Ü.İmanova, L.Karagiçeva, S.Qasımova, Z.Qafarova, Ş.Mahmudova, Z.Səfərova, T.Seyidov, C.Həsənova, A.Tağızadə, R.Fərhadova, F.Xalıqzadə, İ.Əfəndiyeva və b.

Beləliklə, dissertasiyada çoxsaylı alimlərin nəzəri təcrübələri sintezləşdirilir, bunların əsasında müəllif özünün Azərbaycan a capella xor musiqi yaradıcılığına kompleksli yanaşmasını təkmilləşdirərək elmi fənlərin qovşağında dayanan, yəni, muğamşünaslıqla bağlı mənbələr daxil olmaqla, nəzəri musiqi biliklərini tətbiq edir. Tədqiqat predmetinin çoxsahəli baxış bucağı, musiqi ilə verbal mətnlərin qarşılıqlı əlaqəsini dərindən və hərtərəfli öyrənməyə, paralel olaraq Azərbaycan bəstəkarlarının müşayiətsiz xor əsərlərində muğamın təsir spesifikasını üzə çıxarmağa imkan vermişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Müdafiəyə aşağıdakı müddəalar çıxarılır:

1. XX əsrin ortalarından başlayaraq a capella xor əsərləri Azərbaycan bəstəkarlarının yaradıcılığında özünün qabarıq ifadəsəni tapmış və milli xor musiqi mədəniyyətinin ayrıca bir istiqamətini təşkil edir;

2. Müxtəlif nəsil və yaradıcılıq üslublarını təmsil edən Azərbaycan bəstəkarları a capella xor üslubuna müraciət etmiş, bu maraqlı sahədə üslub rəngarəngliyi və bədii obrazlı məzmunun müxtəlifliyi ilə seçilən dəyərli sənət nümunələri yaratmışdırlar;

3. Azərbaycan bəstəkarlarının a capella xor əsərlərinin bədii ifadə vasitələri və formayaradıcı xüsusiyyətləri milli mənbələrə və ilk növbədə, muğam sənətinin zəngin potensialına dayaqlanmaqla mütəxəssislər və musiqi ictimaiyyəti tərəfindən hüsn-rəğbətlə qarşılanmış, bütün dünyada yüksək qiymətləndirilən yazılı ənənəli peşəkar musiqi yaradıcılığı məktəbinin mühüm bir sahəsini əmələ gətirmişdir. Müxtəlif bədii məzmun və formalarda bəstələnmiş çoxsaylı janr nümunələri ayrı-ayrılıqda elmi-musiqişünaslıq marağına səbəb olsa da, bu sahədə iri miqyaslı tədqiqat işləri hələ meydana gəlməmiş, həmin sahənin muğamla əlaqələri kimi diqqətəlayiq aspekti xüsusi şəkildə araşdırılmamışdır;

4. Bu məqsədlə Azərbaycan bəstəkarlıq məktəbinin keçdiyi təkamül yoluna a capella xor əsərləri prizmasında nəzər salınmış, qazanılmış ən dəyərli nailiyyətlər tədqiqat obyektinə çevrilmişdir.

Təhlil edilən hər bir əsərdə müəllifin yaradıcılıq qayəsi və əsərlərin şeir mətnindən irəli gələn bədii məzmunu ilə əlaqədar olaraq özünəməxus tərzdə təcəssümünü tapmışıdır. Belə ki, muğamların zəngin məqam-intonasiya məzmunu, tematizmin inkişaf üsulları, xorun harmonik və polifonik fakturasının prinsipləri, obrazlı-emosional əhvali-ruhiyyəsi, dramaturji quruluş tipləri və s. vasitələr göstərilən milli musiqi mənbəyindən istifadənin müxtəlifliyini ortaya qoymuşdur;

5. Azərbaycan bəstəkarlarının xor yaradıcılığına, o cümlədən a capella tipli xor əsərlərinə tarixi inkişaf dinamikasında yanaşılmış, tədqiq edilən mövzunun da işlənilməsində daima yenilənmə və zənginləşmə diqqəti cəlb etmişdir. Bu baxımdan ayrı-ayrı nəsilləri və fərdi üslubları təmsil edən bədii nümunələrin təhlilində müvafiq yanaşma üslullarının seçilməsi vəzifəsi də imkan daxilində yarinə yetirilmişdir;

6. Təhlil edilmiş a capella xor əsərləri muğam əsasları sayəsində parlaq millilik keyfiyyətləri qazansa da, məhdud mənada anlaşılan formal və qapalı milliyyətçilik meyillərindən uzaq olmaqla, müasir dövrün ən mütərəqqi təmayüllərini təmsil edir, milli köklərdən və ilk növbədə, muğam kimi möhkəm bünövrədən ayrılmadan ümumbəşər əhəmiyyətli bir hadisə kimi təqdim olunur.

7. Sözü gedən a capella xor əsərlərinin öyrənilməsi və bilavasitə tədqiq edilməsi ümumilikdə Azərbaycanda XX əsrin ikinci yarısında bəstəkar və xormeysterlərin yaradıcılıq mənzərəsinin tam mənada açılmasına yol açır.

**Tədqiqatın elmi yeniliyi** . Təqdim olunmuş dissertasiyanın elmi məzmunu Azərbaycan bəstəkarlarının xor yaradıcılığında muğamdan bəhrələnmək mövzusunda yazılmış ilk tədqiqat işi kimi təyin edilir. Azərbaycan bəstəkarlarının müşayiətsiz xor əsərlərinin məhz muğam rakursundan təhlilinə həsr olunmuş xüsusi və böyük həcmli elmi işlərin hazırda mövcud olmaması şəraitində “ağ ləkələrin” doldurulması elmi yenilik olaraq qiymətləndirilə bilər.

Təqdim olunan dissertasiya işində həmçinin, ilk dəfə olaraq Azərbaycan a capella xor musiqisi nümunələrinə obrazlı-tematik məzmun və bədii-poetik əsasın musiqili təfsiri nöqteyi-nəzərindən çıxış edən müstəqil tədqiqat problemi kimi baxılır. Bununla yanaşı,

muğamın dissertasiyada təqdim olunmuş əsərlərin melodik və harmonik əsasına göstərdiyi təsir xüsusiyyətləri də burada ön planda verilmişdir.

Təqdim edilmiş elmi işdə XX əsrin 90-cı illərinədək yazılmış, demək olar ki, bütün a capella xorlarının ən parlaq nümunələri təhlil olunmuşdur. Verilmiş əsərlərdə Azərbaycan bəstəkarlarının muğama olan yaradıcı yanaşmaları, onun tətbiqi zamanı üzə çıxan obrazlı-emosional məzmunu, metro-ritmik və struktur xüsusiyyətlətləri də özünü qabarıq şəkildə göstərmişdir. Dissertasiyada həmçinin Azərbaycan xor musiqi yaradıcılığının müşayiətsiz nümunələri mövzu, kompozisiya, intonasiya və faktura aspektlərindən ətraflı şəkildə tədqiq edilmişdir.

Beləliklə, Azərbaycan bəstəkarlarının a capella xorları ilk dəfə əsas təmayülləri rəhbər tutaraq, muğam və bəstəkar yaradıcılığının qarşılıqlı əlaqəsi aspektindən araşdırılır ki, bu da çağdaş yerli incəsənətin vokal-xor sahəsinin elmi-nəzəri fəaliyyət dairəsi bazasını zənginləşdirir. Bu cür araşdırma istiqaməti Azərbaycan bəstəkarlarının yaradıcılığında a capella xorları üçün yazılmış əsərlərdə milli mənbələrin tədqiqatına yol açır.

Onu da xüsusilə qeyd etmək lazımdır ki, təqdim olunmuş tədqiqat işi nəticəsində Ü.Hacıbəylinin müəllifi olduğu “Nə gözəldir” xor miniatürünün Azərbaycanda ilk a capella xoru nümunəsi olduğu aşkarlanmışdır. Bundan əlavə, dissertasiya işində F.Əmirovun işlədiyi “Gözəlim sənsən”, N.Əliverdibəyovun “Şikəstə”, F.Nağıyevin “4 poema” və M.Əsgərovun “Əhsən Şüştər” a capella xorları ilk dəfə olaraq təhlilə cəlb edilir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın elmi mahiyyəti Azərbaycan xor musiqi yaradıcılığına daxil olan müşayiətsiz əsərlərin bir qisminin sistemli şəkildə ilk dəfə olaraq təhlil olunması və muğamın bu əsərlərin bədii-konseptual spesifikasına göstərdiyi təsir nöqteyi-nəzərindən tətbiqindən ibarətdir. Burada təklif olunan bəzi ideyalar müasir bəstəkarlığın xor yaradıcılığına dair yeni tədqiqat rakurslarının formalaşması üçün əhəmiyyətli görünür.

Tədqiqatın təcrübi əhəmiyyəti Azərbaycan bəstəkar və xormeysterlərinin a capella xor yazı texnikalarına dair müşahidə və nəticələri, “XX əsrin musiqi tarixi” və “Musiqi əsərlərinin təhlili”,

eləcə də “Xor ədəbiyyatı”, “Xor musiqisi tarixi”, “Xorşünaslıq”, “Xor üslubları”, “Xor aranjimanı” və musiqi tarixinə dair digər xüsusi kurslarda istifadə oluna bilər. Göstərilən araşdırma işi həmçinin ifaçı-dirijorlar, xormeysterlər, eləcə də musiqi ilə əlaqəli tədris müəssisələrinin müəllim və tələbələrinə “Xor dirijorluğu” ixtisası üzrə praktiki yardım qismində görünə bilər.

Dissertasiyanın materialları həm keçmiş onilliklərin, həm müasir Azərbaycan a capella xor musiqi nümunələrinin ifası, həm də bilavasitə xor üzərində praktiki iş zamanı əyani vəsait kimi xor kollektivləri rəhbərlərinə gərək ola bilər.

Tədqiqat işində müəllif tərəfindən belə bir ideya və təklif də həmçinin irəli sürülür ki, Azərbaycan bəstəkarlarının əsərlərinin milli musiqi mənşəyinin, eləcə də musiqi dili, quruluşu, harmonik və metroritmik xüsusiyyətlərin araşdırılması məsələlərindən bəhs edən “Azərbaycan bəstəkarlarının musiqi əsərlərinin təhlili” adlı fənn tədris olunsun.

**Aprobasiyası və tətbiqi.** Tədqiqatın əsas müddəaları müəllifin AAK tərəfindən tövsiyə olunan elmi jurnallarda dərc edilmiş məqalələrində, eləcə də respublika və beynəlxalq elmi konfransların materiallarında öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Azərbaycan Milli Konservatoriyasının “Musiqi tarixi və nəzəriyyəsi” kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi** qarşıya qoyulmuş məqsədlər və tədqiqatın mündəricəsi ilə şərtləndirilir. Dissertasiya giriş, iki fəsil, yeddi paraqraf, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir. Dissertasiyanın struktur bölmələrinin həcminə gəlincə, “Giriş” 13 səhifə 23513 işarədən, I fəsil 55 səhifə 86008 işarədən, II fəsil 76 səhifə 97077 işarədən, “Nəticə” isə 6 səhifə 9582 işarədən ibarətdir. Tədqiqat işinin ümumi həcmi isə “İstifadə edilmiş ədəbiyyat siyahısı” və “Əlavələr” istisna olunmaqla 216173 işarədən ibarətdir.

Dissertasiya işinin ümumi həcmi üç qrafik və altı cədvəl daxil olmaqla 168 səhifədə şərh olunmuşdur. “İstifadə edilmiş ədəbiyyat siyahısı” Azərbaycan və rus dillərində olan yerli və xarici

müəlliflərin işləri, eləcə də internetdən götürülmüş materiallarla bərabər 190 mənbədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **I fəsli "Azərbaycan bəstəkarlarının yaradıcılığında a capella xor janrı"** adlanır. Bu fəsil üç paraqrafdan ibarətdir. **1.1. "Azərbaycan bəstəkarlarının yaradıcılığında xor əsərlərinin meydana gəlməsi"** adlanır**.** Burada dahi Azərbaycan bəstəkarı, publisisti və pedaqoqu Ü.Hacıbəylinin musiqi tariximizdə yeni bir janrın-xor sənətinin əsasını qoymaqla, Avropa mədəniyyəti ilə daha bir mübadilə yolu yaratması haqda danışılır.

Dissertasiyanın birinci paraqrafında həmçinin Azərbaycan Dövlət Konservatoriyasında xor fənninin sistemə salınması, eləcə də xor dirijorluğu kafedrasının yaranması və o dövrdən indiyədək onun keçdiyi təkamül yoluna nəzər salınıb. L.Frolova, C.Cahangirov, A.Yurlov, E.Novruzov, N.Məlikov, L.Atakişiyeva, S.Ağayeva, Z.İsmayılova kimi mütəxəssislərin adları artıq xor dirijorluğu kafedrasının tarixi icmalını verir.

1966-cı ildə Azərbaycan Dövlət Xor Kapellasının yaranması və onun fəaliyyəti, repertuarı, eləcə də rəhbərləri E.Novruzov, Z.İsmayılova, E.Kərimova, G.İmanova və digərləri haqda da məlumatlar burada yer almışdır.

**1.2. "XX əsrin birinci yarısında yazılmış a capella xor əsərləri"** adlanır. Bu paraqrafda Azərbaycan a capella xor musiqisinin ilk nümunələrindən danışılır, Ü.Hacıbəylinin əlyazmaları əsasında "Aman nənə", "Lolo", "Bəri bax", "Ləlli" xalq mahnılarının işləmələri və müəllif mahnısı olan "Nə gözəldir" nümunəsi təhlilə cəlb olunmuşdur. Onu da deyək edək ki, sonuncu qeyd etdiyimiz parçanın tarixi əhəmiyyəti də diqqət mərkəzinə çəkilir. Daha sonra, görkəmli Azərbaycan bəstəkarı Q.Qarayevin Azərbaycan muğamından istifadə prinsiplərindən danışılır, həmçinin musiqi tariximizə qarışıq a capella xoru üçün yazılmış ilk polifonik əsər kimi daxil olan "Payız" xoru təhlil olunur və burada bəstəkarın hansı muğam, eləcə də şöbələrin intonasiyalarından istifadə etdiyi tədqiq edilir.

**1.3. “Azərbaycan bəstəkarlarının a capella xorlarında məqam-muğam xüsusiyyətləri (1950-70-ci illər)** adlanır. Bu paraqrafda F.Əmirovun “Gözəlim sənsən”, C.Cahangirovun “Kərəm kimi”, N.Əliverdibəyovun “Bayatı-Şiraz” xor muğamı və “Şikəstə” a capella əsərləri təhlil olunur. Onun yaratdığı operalardakı xor səhnələrindən savayı, kiçik həcmli əsərlərdə belə özünü büruzə verən parlaq emosionallığı və geniş musiqi amplitudu işlədiyi xalq mahnılarında aydın sezilir. Bu nümunələrdən biri, onun 1967-ci ildə, solo-tenor və qarışıq a capella xoru üçün işlədiyi 5 səsli (soprano, alt, tenor, bariton, bas) “Gözəlim sənsən" adlı xalq mahnısıdır. Aparılan ətraflı xor təhlili bəstəkarın harmonik dili və əsərin quruluş ideyasını aşkara çıxarır. Onu da qeyd edək ki, mətni xalq sözlərinə əsaslansa da, bu kompozisiyada sözlər şair Teymur Elçinin işləməsində verilmişdir.

Burada təhlil edilən növbəti a capella xor əsəri Azərbaycanın musiqi tarixində özünə məxsus dəst-xətti ilə seçilən bəstəkarımız C.Cahangirova məxsusdur. Yaradıcılığı boyu ən müxtəlif janrlara müraciət etmiş sənətkar xor musiqisinə xüsusi rəğbət bəsləmişdir. Onun yaradıcılığı müstəvisində Azərbaycanın xor sənətinin öz zirvəsinə yetişməsi heç də təsadüfi deyildir. Bəstəkar xor və simfonik orkestr üçün yazılmış məşhur əsərlərin, həmçinin ilk a capella xor konsertinin müəllifidir. Bundan başqa, onlarca a capella xor miniatürləri musiqi xəzinəmizə öz əhəmiyyətli tövhəsini vermişdir. Bəstəkarımızın 1968-ci ildə qələmə aldığı "Kərəm kimi" a capella xoru da bu paraqrafda təhlil olunan əsərlər sırasındadır. Onun bu əsəri ölməz türk şairi Nazım Hikmətin eyni adlı şeirinə yazılmışdır (tərcümə edəni S.Məmmədzadə).

“Kərəm kimi” şeirinin mövzusunda fərdi duyğu və düşüncələr əvəzinə kütləvilik ön plana çəkilir. Şeirdə insanlıq faktoru olan ideologiyaya bağlılıq kimi bir həqiqət mərkəzi fikri təşkil edərək artıq toplum bir çağırışa dönüşmüşdür. Bundan başqa, burada Şüştər muğamının mayeyi-şüştər, feili, tərkib kimi şöbələrinin pərdələrinə toxunulur, həmçinin rast, segah kimi məqamlara da yönəlmələr müşahidə olunur.

Bu paraqrafda təhlil olunan əsərlərdən biri də N.Əliverdibəyovun “Bayatı-Şiraz” xor muğamıdır. 1969-cu ildə, qarışıq xor və xanəndə üçün yazılmış bu a capella xorunda bildiyimiz

“Bayatı-Şiraz” dəstgahı tam şəkildə əks olunmasa da, muğamın uyğun şöbə və təsniflərindən istifadə edilərək, əhəmiyyətli bir kompozisiya yaranmışdır.

N.Əliverdibəyovun təhlil olunan daha bir qarışıq xor və solist (xanəndə) üçün yazdığı a capella əsəri “Şikəstə”dir. Beş səs (S1, S2, A, T, B) üçün nəzərdə tutulmuş bu vokalizdə xor həm sərbəst melodik xətti, həm də müşayiəti aparır. Partiturada zərb alətlərinin ritmik şəklini də görmək mümkündür. Əsərin xanəndəyə həvalə olunmuş hissəsində ifaçı həm “Qarabağ şikəstəsi”, həm də “Kəsmə şikəstə”ni oxuya bilər. Bu muğamların hər ikisində mətn olaraq el bayatılarından istifadə olunur və solist burada mövzu seçimi baxımından sərbəstdir.

Dissertasiyanın **II fəsli “Azərbaycan a capella xor musiqisində muğamın tətbiqi (1970-1990-cı illər)”** adlanır. Bu fəsil də dörd paraqrafdan ibarətdir. **2.1. “Aqşin Əlizadə və Faiq Nağıyevin müşayiətsiz xor üçün əsərləri”** adlanır. Burada ilk olaraq A.Əlizadənin yaradıcılıq üslubu, həmçinin neofolklorizm dalğasında ərsəyə gəlmiş milli bəstəkarlıq sənəti nümunələrindən danışılır. Daha sonra bəstəkarın qarışıq a capella xoru üçün yaratdığı “Qədim lay-lay” əsəri təhlil olunur. Burada xor partiyaları arasında olan məqam-intonasiya əlaqələri, əsərin dramaturgiya və fakturası ön plana çəkilir.

Növbəti hissədə isə diqqət F.Nağıyevin kiçik həcmli a capella xorlarının təhlilinə ayrılır. Lirik-romantik mövzuda yazılmış bu əsərlərin hər birində Azərbaycan milli musiqisinin aparıcı mövqeyini, bilavasitə bəstəkarın lad-məqam hissiyyatını görmək mümkündür. Bəstəkar hətta aşıq musiqisinin elementlərindən də istifadə etmişdir. Məsələn qarışıq a capella xoru üçün 1979-cu ildə bəstələnən “Aşiqəm” miniatüründə həm aşıq musiqisinin ritmik şəkli, paralel kvartalarla hərəkət elementi, həm də muğamlarımızdan istifadə olunub. Sadə üç hissəli, reprizli formada yazılmış bu miniatürdə “Segah” muğamının təsiri aydın şəkildə nəzərə çarpır. Burada “Segah” muğamının müxtəlif növlərindən – “Xaric Segah”, “Haşım Segahı”, “Yalxın Segah” və onların bəzi şöbələrindən istifadə edilib.

F.Nağıyevin qarışıq a capella xoru üçün yazdığı 4 poema da diqqətəlayiqdir və onlar muğam əsaslı nümunələr olaraq təhlil edilir. 1983-cü ildə yazılmış bu məcmuəyə “Bənövşəyəm”, “Gedər” və

"Toy günü" xorları daxil idi. 1986-cı ildə isə dördüncü – "O sarı yarpaq" adlı miniatür də bəstəkar tərəfindən silsiləyə əlavə olunub. Təhlil zamanı əsərdə istifadə olunan polifonik gediş və kanonik imitasiyaları göstərən qrafik tərtib edilmişdir:

**Qrafik**

**"Toy günü" miniatürünün təhlilinə aid**




**2.2. "Faiq Nağıyevin a capella xor konserti"** adlanır. Müasir xor musiqimizin inkişafında danılmaz rolu olan çağdaş bəstəkarımız F.Nağıyev C.Cahangirovdan sonra faktiki olaraq ilk dəfə a capella xor konserti janrına müraciət etmişdir. Əziz müəllimi Q.Qarayevə həsr olunmuş əsərdə müəllif bu şəxsiyyətin itkisindən doğan ağrı-acısını, qəlb sarsıntısını öz musiqi dilinə böyük məharətlə köçürə bilmişdir.

XII əsr klassik Azərbaycan ədəbiyyatının böyük nümayəndəsi Xaqani Şirvaninin (1129-1199) sözlərinə yazılmış bu konsert "Ağrı", "Əlvida" və "Fəryad" adlı 3 hissədən ibarətdir. Konsertin unikallığı ondandır ki, bir əsər daxilində üç vokal janrı - I hissədə Xaqaninin sözlərinə yazılmış xor, II hissədə vokaliz, III hissədə dini misteriya- çarpazlaşır. Bəstəkar burada "Bayatı-Kürd" muğamının intonasiyaları, "Mayeyi-Şur", "Bərdaşt" (Şur), "Çahargah", "Humayun-Əmiri", "Tərkib" ("Humayun"), "Mahur-Hindi", "Orta Mahur", "Bayatı-türk", "Bayatı-Şiraz" kimi muğam və şöbələrə istinad etmişdir.

F.Nağıyevin konsert konsepsiyasına müəzzin timsalında çıxış edən solo tenorun partiyası, I-III hissələrdə işlənmiş Xaqaninin şeirləri, eləcə də İslamda rast gəlinən oxşama, mərsiyə elementləri və "Kəlmeyi-Şəhadət" daxildir. Bundan başqa, xor konserti unikal kodası ilə də diqqəti cəlb edir. Burada insanın ölüm ayağında olarkən

ürəyinin döyüntülərini və son nəfəsini imitasiya edən reçitativ və küylərdən istifadə olunub.

**2.3. "Ramiz Mustafayev və Ağakərim Kərimovun a capella xor əsərləri"** adlanır. Məlum olduğu kimi, yaradıcılığının böyük bir hissəsini məhz xor janrına həsr etmiş görkəmli Azərbaycan bəstəkarı R.Mustafayev a capella xor musiqisi istiqamətində də silsilə əsərlər bəstələmişdir. Bu əsərlərin hamısında milli köklərimizə bağlılıq, muğam sevgisi aydın duyulur. Onlardan biri təhlilə cəlb etdiyimiz, B.Vahabzadənin sözlərinə yazılmış "Gülüm yoxdur" a capella xorudur. "Orta Mahur" muğamı üstündə yazılmış bu parçada "Üşşaq" və "Şikəsteyi-fars" şöbəsinin intonasiyalarından istifadə olunmuşdur.

Təqdim etdiyimiz tədqiqat işində beş əsərdən ibarət a capella xor silsiləsinə daxil olan iki əsər- 1984-cü ildə yazılmış "Buludlar" və "Yarpaqlar" təhlil edilir.

N.Xəzrinin sərbəst vəzndə yazdığı "Buludlar" şeirində bu həm gözəlliyi təsvir olunan hərəkətli təbiət hadisəsi, həm də şairin vətən sevgisi və doğma yurd həsrətini ifadə edən bədii xitabdır. Əsərin sabit bir lad özəyi yoxdur. Bəstənin obrazlı-emosional xüsusiyyətlərinə diqqət yetirərək, A.Kərimov burada "Qatar", "Bayatı-Şiraz", "Segah", "Çahargah" muğamları və onların şöbələrindən böyük ustalıqla istifadə etmişdir. Bundan əlavə, əsər boyu istifadə olunan, harmonik majora aid xromatizmlər musiqiyə xüsusi incəlik verir.

A.Kərimovun təhlil etdiyimiz birinci bəstəsi- "Buludlar"dan fərqli olaraq, növbəti "Yarpaqlar" əsəri qarışıq a capella xoru və solist üçün yazılmışdır. Mətni T.Mütəllibova mənsub olan bu əsərdə, sevgilisini gözləyən gənc bir oğlanla əzilən yarpaqların gileyli söhbətindən danışılır. Burada xor yarpaqların dilindən, solo tenor isə gənc oğlan obrazında çıxış edir. Burada bəstəkar f və b mayəli bayatı-şiraz, şüştər və segah, hətta çahargah muğamından istifadə etmiş, eləcə də şüştərin əmiri şöbəsinin pərdələrinə toxunmuşdur. Biz bu əsərdə xanələr arasında eyni vaxtda bir neçə şöbədən, hətta eyni şöbənin fərqli tonikalardan ifa olunmaqla istifadə edildiyini gördük. Burada verilən muğam əsaslı polifonik quruluş və politonallıq, bəstəkarın yeni eksperimentlərə son dərəcə açıq olmasını nümayiş etdirir.

**2.4. "Ədilə Hüseynzadə, Firəngiz Əlizadə, Müsəvvər Əsgərov və Fuad Cavadovun a capella xor əsərləri"** adlanır. Bu paraqrafda

iki qadın bəstəkar və iki xormeysterin a capella əsərlərinə baxılıb. Təhlil olunan ilk əsər də Azərbaycanın ilk peşəkar qadın bəstəkarı Ə.Hüseynzadənin "Vətən" a capella xorudur. Burada bəstəkar əsasən "Mahur-Hindi" muğamının şöbələrinə istinad etmişdir. 1974-cü ildə bəstələnmiş bu miniatür xalq şairi S.Rüstəmin sözlərinə yazılmışdır. Ə.Hüseynzadə burada da muğamın incəliklərinə dərindən bələd olduğunu və hər sətrində milli musiqimizi tərənnüm etdiyini vurğulamışdır.

Azərbaycanda müasir musiqi janrının inkişafı, ifaçılığı və tədrisində müstəsna xidmətləri olmuş dünya şöhrətli bəstəkar və pianoçu F.Əlizadə öz yaradıcılığı boyu xor janrından əsasən iri həcmli əsərlərində istifadə etmişdir. Bəstəkar hər zaman öz əsərlərində milli musiqi ən-ənələrimizə bağlılığını vurğulamış, muğam intonasiyalarını müasir harmoniyalarla uğurlu şəkildə təqdim etmişdir. 1984-cü ildə N. Xəzrinin sözlərinə yazdığı "Payız" a capella xorunda müəllif əsasən "Şur" muğamının şöbələrinə xas olan pərdələrə toxunmuşdur. Onların arasında "Bərdaşt", "Mayə" və "Şura Əyağ" şöbələri, eləcə də kiçik həcmli müstəqil muğamlarımızdan olan "Bayatı-Kürd" intonasiyalarına da rast gəlinir.

Təhlil olunan növbəti a capella əsəri Azərbaycanın istedadlı xormeysterlərindən olan M.Əsgərovun 1984-cü ildə müşayiətsiz qarışıq xor üçün bəstələdiyi "Əhsən Şüştər" xorudur. Bu əsərin melodiyası görkəmli tarzən Əhsən Dadaşovun "Şüştər" və "Hümayun" rəngləri üzərində qurulmuşdur.

Azərbaycan tarixinə qan yaddaşı kimi yazılmış 20 Yanvar, hər bir soydaşımız kimi bir çox incəsənət xadimləri, o cümlədən bəstəkarların da laqeyd qala bilmədiyi bir mövzudur. Bu mövzuda yazıb-yaradanlardan biri də Azərbaycanın istedadlı bəstəkarı və xormeysteri F.Cavadovdur. Qarışıq xor (soprano, alt, tenor, bas) və solist (metso soprano) üçün yazılmış "Qara Yanvar" a capella əsəri onun professionalcasına işlədiyi bir xor əsəri nümunəsidir. Şur muğamı üzərində qurulmuş bu melodiya sakit, hüznlü bir iztirabı ifadə edir. Parçada istifadə olunan ədəbi mətn – bayatı nümunəsi musiqiyə ağı xarakteri verir. Bu akitlik gözlənilməz dissonans səslənişli akkordla pozulur və 3 xanə saxlanılaraq əsərə yekun verir. Düşünmək

olar ki, bu akkord 20 Yanvar faciəsi qurbanlarının xatirəsinə 1 dəqiqəlik sükut zamanı səslənən gəmi fitlərini simvolizə edir.

Hazırkı dissertasiya işi XX əsrin əvvəllərindən 1990-cı illərə qədər davam etmiş dövrün müxtəlif formalı a capella xor əsərlərini tədqiqata cəlb etmiş və çox sayda bəstəkarlıq sənəti nümunələrini, çeşidli muğam təsirlərini ilk dəfə xüsusi şəkildə araşdırmağı öz qarşısına məqsəd qoymuşdur. Beləliklə, verilmiş dissertasiyadakı **"Nəticə"**də, milli a capella xor musiqisinin araşdırılması zəminində aşağıdakı müddəalar əldə olunmuşdur.

Birincisi, yerinə yetirilmiş tədqiqatın nəticələri onu deməyə əsas verir ki, Azərbaycanın bəstəkar və xormeysterlərinin a capella xorları sahəsində yaradıcılıq təcrübəsi müvafiq əsərlərin janr, üslub və fərdi müəllif yanaşmaları baxımından müxtəlif olub, müstəqil şəkildə tədqiq edilməlidir.

İkincisi, milli xor mədəniyyətində bu istiqamətin milli kökləri içərisində ulu muğam sənətinin təsirləri daha önəmli əhəmiyyətə malik olub istər ideya-bədii məzmun xüsusiyyətlərində, istərsə də forma cəhətində bilavasitə öz əksini tapmışdır.

Üçüncüsü, a capella xorları kiçik həcmli miniatürlərdən tutmuş iri həcmli silsiləli konsert janrına qədər müxtəlif formalarda ifadə olunaraq, zəngin lad-intonasiya və tematik məzmunu, harmonik və polifonik fakturası ilə seçilirlər.

Nəhayət, müəlliflər bu tipli xor yaradıcılığına müraciət edərkən, özlərinin rəngarəng bədii niyyətlərini fərdi texniki vasitələrlə təcəssüm etdirməyə nail olmuşdurlar.

Azərbaycan bəstəkarlıq sənətinin bütün sahələrində olduğu kimi, a capella xor əsərlərində də muğamdan istifadə prinsipləri sitat üsulundan başlayaraq müxtəlif tipli yaradıcılıq metodlarını əhatə edir: milli məqamların ciddi və sərbəst təfsiri, qanunauyğun tematik inkişafı və forma quruculuğu, milli koloritli çoxsəsli və harmonik toxumanın əmələ gəlməsi və s.

Tədqiq etdiyimiz problem müasir mərhələdə "doğma-yad" paradiqmasının bir hissəsi kimi xüsusi aktuallıq kəsb edir. Bu məsələ bir tərəfdən muğamın dəyişilməz şəkildə iqtibas edilməsi və ya sitat gətirilməsi (məsələn, N.Əliverdibəyovun "Bayatı-Şiraz" xor muğamı, "Şikəstə" əsəri və M.Əsgərovun "Əhsən Şüştər" miniatürü),

digər tərəfdən müasir bədii yaradıcılıq təcrübəsinə daxil edilməsi ilə əlaqədar baxılmışdır. Eyni zamanda, qeyd olunan əsərlərdə, xüsusilə də, "Bayatı-Şiraz"ın xor versiyasında sitat üsulunun tətbiqi müəllifin ilkin mənbəyə qarşı yaradıcı münasibətini inkar etmir, buna görə də tərəfimizdən təhlil edilmişdir. Adı çəkilən əsərlər məhz muğamın birbaşa təcəssümünə dair tədqiqata cəlb edilmiş a capella xorlarıdır. Yəni, burada əsərlərin sırf məqam əsası deyil, həmçinin eyniadlı muğam dəstgahları və onların şöbələri ilə müqayisəli təhlili daha böyük əhəmiyyət kəsb edir.

Muğamın yaradıcı şəkildə yenidən mənalandırılması, daha doğrusu, onun məqam əsasının sərbəst şərhi A.Kərimovun "Buludlar" xor əsərində özünü aydın şəkildə göstərir. Əsərdə "Qatar" və "Bayatı-Şiraz" dəstgahlarının müəyyən şöbələrinin, eləcə də, "Segah" və "Çahargah" məqamlarının bir arada istifadəsi maraqlı bədii məzmunun təcəssümünə xidmət edir: bu xorda xəyalpərəstlik ideyaları dərin sükunət və səssizlik şəraitində tərənnüm edilərək, bizi əhatə edən aləmin gözəlliklərini zəngin səs palitrası vasitəsilə təsvir edir. Ə.Hüseynzadənin "Vətən" xorunda isə "Mahur" muğamı intonasiyalarından istifadə ali vətənpərvərlik hisslərinin ifadəsinə yönəlmişdir. Onu da qeyd edək ki, R.Mustafayevin "Gülüm yoxdur" a capella xorunun da "Rast" ailəsinə mənsub muğam üzərində (Orta Mahur) yazılmasına baxmayaraq, burada bu muğamlara xas olan ruh yüksəkliyi və qəhrəmanlıq əhval-ruhiyyəsi deyil, həsrət mövzulu sevgi lirikası əks olunmuşdur.

Əsasən Xaric, Haşım, Yalxın Segah növləri, ara-sıra Şüştər və Şur muğamlarının intonasiyaları F.Əmirovun "Gözəlim sənsən", F.Nağıyevin "Aşiqəm" və "Bənövşəyəm" miniatürlərində sevgi lirikasının əksi olaraq istifadə olunmuşdur. A.Əlizadənin "Qədim lay-lay" əsərinin segah məqamına mənsubluğu isə, onu epik-lirik qəbildən olan a capella xor miniatürü kimi təqdim edir və burada neofolklorizm nümunəsi olaraq araşdırılır.

Bundan başqa "Şur" muğamının intonasiyaları F.Əlizadənin "Payız" xorunda peyzaj lirikasının təzahür vasitəsi kimi də çıxış edir.

Dissertasiyada təqdim olunmuş bütün əsərlərdə ənənəvilik və novatorluq cizgiləri orijinal şəkildə bir-birinə uyğunlaşır. Azərbaycan bəstəkarlarının müşayiətsiz xor əsərləri kifayət qədər klassik

ənənələrə cavab verən və mövcud materialın ritm-intonasiya baxımından klassik texnika ilə işlənməsindən (Q.Qarayevin “Payız” əsəri), konsert tipli, iri formalı, əsl yenilikçi əsərlərədək (məsələn, F.Nağıyevin Xor konserti) keçilən üslub təkamülünü nümayiş etdirir.

Bu fakt təkcə ənənə və novatorluğun varisliyini, klassik Azərbaycan şairləri Xaqani və Nizaminin fəlsəfə məzmunlu misralarının istifadəsini deyil, həmçinin müasir bəstəkarlıq sənətinə aid müşayiətsiz xor əsərlərində yeni texniki vasitələrin geniş tətbiqi amplitudunu göstərir (formanın klassik şərhindən çoxjanrlılıq, çoxməqamlılıq, poliritmika, alleatorika və sonor effektlərədək). Belə ki, F.Nağıyev Xor konsertinin üçüncü hissəsində portomento, səsin qeyri-dəqiq fiksasiyası (təsbiti), pıçıltılar, ayrı-ayrı qışqırıqlar və s. geniş istifadə etmişdir.

Bədii ideya və kompozisiya texnikasından asılı olaraq, Azərbaycan bəstəkarları araşdırdığımız xor əsərlərində müxtəlif tematizm növləri və onların inkişaf metodlarından ustalıqla istifadə edirlər. Bu əsərlərdə motiv işləmələri və polifonik üsullara rast gəlinsə də, muğam tematizminin variantlı və improvizasiyalı inkişaf prinsipləri aparıcı rola malikdir.

Nəticədə qeyd edək ki, dissertasiyada göstərilən mövzunun tədqiqi bütöv bir problemlər dairəsinə, Azərbaycan bəstəkarlarının xor musiqisinin tipologiyasına muğamın obrazlılıq, məna və janr çoxşaxəliliyinə, ayrı-ayrı bəstəkarların bədii metod spesifikası və digər məsələlərin tədqiqatına çıxmaq üçün imkanlar açır. Bizim fikrimizcə, gələcəkdə bu mövzuların işlənməsi Azərbaycanın musiqi incəsənətinin ümumi mənzərəsini zənginləşdirməyə xidmət edəcəkdir.

**Dissertasiyanın məzmununa uyğun olaraq müəllifin aşağıdakı əsərləri çap olunmuşdur:**


1. Muradzadə L.R. Əhsən “Şüştər” a capella xor əsərində muğamdan istifadə // – Bakı: Konservatoriya – 2015. № 1(27), – s. 33-38

2. Muradzadə L.R. Azərbaycan xor mədəniyyətinin təşəkkülündə Üzeyir Hacıbəylinin rolu // XIV Beynəlxalq elmi-praktiki konfrans “Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri”. – Bakı: – 2015, – s.101-105

3. Muradzadə L.R. Nazim Əliverdibəyov – “Bayatı-Şiraz” xor muğam // Doktorantların və gənc tədqiqatçıların XX Respublika Elmi konfransı. – Bakı: 2016, – s.519-521

4. Muradzadə L.R. Azərbaycan bəstəkarlarının xor miniatürlərində milli xüsusiyyətlər // Beynəlxalq elmi konfrans Ulu Öndər Heydər Əliyev İrsində Multikultural və Tolerant Dəyərlər. – Bakı: – 3-5 May, – 2016, – s.242-244

5. Muradzadə L.R. Ağakərim Kərimovun “Buludlar” xor əsərində milli lad-məqam xüsusiyyətləri / – Bakı: Musiqi dünyası – 2017. № 4/73, – s. 90-93

6. Muradzadə L.R. Ладовые особенности хорового произведения «Листья» (Yarpaqlar) Агакерима Керимова // – Bakı: – Harmony – 2017, № 16. http://harmony.musigi-dunya.az/RUS/reader.asp?txtid=722&s=1

7. Muradzadə L.R. Qara Qarayevin “Payız” a capella xorunda milli ladlardan istifadə // – Bakı: – Mədəniyyət.az /1 – Yanvar-Fevral 2018, – s. 31-33

8. Muradzadə L.R. A.Hüseynzade’nin “Vatan” a capella korosunun muğam açısından değerlendirilmesi // Beynəlxalq konfrans 4.Uluslararası Müzik ve Dans Kongresi. – Türkiye, Bodrum, – 19-21 Oktyabr, – 2018.

9. Muradzadə L.R. Use of “Segah” mugham on Faig Naghiyev’s “Ashigam” choral miniature // European Sciences review. – Vienna, – 2018 (November-December), – №11-12, – Volume 1; ISSN 2310-5577

10. Muradzadə L.R. Azerbaycan’daki ilk neofolklorizm örnekleri a capella koro müziği // Turan Stratejik Araştırmalar Merkezi (Uluslararası Bilimsel Hakemli Mevsimlik Dergi). – Türkiye, Kars, – 2021, – 21 Dekabr, – Volume: 13, ISSUE: 52

Dissertasiyanın müdafiəsi ____ _________ 2022-ci il tarixində saat ______ Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı şəhəri, Ş.Bədəlbəyli, 98.

Dissertasiya ilə Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat _____ _________ 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 29.04.2022

Kağızın formatı: 60x84 1/16

Həcm: 42 127

Tiraj: 100